Gəlimli-gedimli dünya

Təki ömür qısa olmayaydı...

Sragağün xalq artisti, Dövlət mükafatı laureatı Əliabbas Qədirov dünyasını dəyişdi

2006-cı il fevralın 26-sı yəqin ki, ömrümün sonuna kimi yadımda qalacaq. Pyesin müəllifi Əli Əmirli ilə "Mesenat" tamaşasından sonra qrim otağına tərəf yollandım. Səni təbrik etmək üçün Əliabbas. Əli müəllim otağa çatmamış qayıtdı. Görünür

sənin oynadığın Hacı Zeynalabdin Tağıyev rolu barəsində söhbətə qarışmamaq üçün. Bu rol son dövrdə sənin ən çətin, dəyərdim ən uğurlu rollarından biri idi. Obrazın daxili aləmini, inkişaf xəttini, Hacının hərəkətlərini canlandırmağını demirəm, məni hər kəlmə üzərində işləməyin tutmuşdu. Fikrimi sənə bildirəndə — aktyorun borcu hər söz üzərində işləməkdir, — dedin. Elə bu məqamda teatrın direktoru Maqbet Bünyadov içəri girib səni təbrik etdi. Tamaşanın sonundakı bir məqamı — rus qoşunlarının Hacının ev əşyalarını apararkən stolla birlikdə üstündəki papağı da götürdüyünü xatırlatdı. Elə o anda Hacı əlini başına yaxınlaşdırmaq istəyir. Amma əlini başına ağır aparır. Çünki başı od tutub yanır. Sən həmin məqama işarə edərək əlini peysərinə apardın — bəs başından çıxan tüstü — deyə dilləndin.

İnana bilməzdim o gün Hacı rolunda sənin başından qalxan tüstü sonuncu idi. İndi rolda sənin başından qalxan tüstü həyatda səni istəyənlərin, yüz minlərlə tamaşaçının başından qalxır.

Yadıma tələbəlik illəri, Mehdi Məmmədovun dərsləri düşür. Müəllimin metodikası elə idi ki, hərdən rejissorları, aktyorları, bəzən də biz teatrşünasları da hansısa münasib bildiyi mühazirədə birləşdirirdi. O vaxtdan da kurslarımız arasında ünsiyyət, dostluq möhkəmlənmişdi. Kasıb bir ailənin üzvü olan sənə hamı mənəvi zənginliyinə, mərdliyinə görə qibtə edirdi. O illər Mehdi Məmmədov başını aşağı salıb tələbələrini yetişdirirdi. Təkcə sizin kursunuzdan çıxan aktyorlar, rejissorlar yada düşür. Sən, Rasim, Mikayıl, Vaqif, Firuz... Rejissorlar Azər Paşa Nemətov, Tariyel Vəliyev, Məhərrəm Əlizadə...

Əliabbas Qədirov

Hacı Zeynalabdin Tağıyev rolunda

Yadımdadır, Mehdi Məmmədovu istedadlı tələbə "yetişdirə" bilmədiyi üçün qınayırdılar, hətta bir müddət onu işsiz də (1977-1978-ci illər) qoydular.

Təkcə sənin tələbəlik illərindən, Tədris Teatrından tutmuş bu günə kimi oynadığın rolları yada salsaq, o ittihamlar necə də gülünc görünür. Sən Dövlət mükafatına, xalq artisti fəxri adına layiq görüldün. Bu işin rəsmi tərəfidir.

Tamaşaçıların yaddaşında isə Balaş ("Sevil"), Vaqif ("Vaqif"), Mir Cəfər Bağırov ("Sevgililərin cəhənnəmdə vüsalı"), Nicat ("Mahnı dağlarda qaldı"), Mirzə Şəfi ("Mənsiz dünya"), İbrahim xan ("Hökmdar və qızı") və sair rolların əvəzsiz ifaçısı kimi qaldın. Televiziya tamaşalarında isə milyonlarla insanın qəlbini ovsunlamışdın. Cahangir ("Laçın yuvası"), Fərhad ("Bəxtsiz cavan"), Cahangir ("Atayevlər ailəsi"), Heydər bəy ("Hacı Qara"), Dilqəm ("Təkan"). İndi tamaşaçıların sənin çəkildiyin hər filmə baxdıqdan sonra, yoxluğun yada düşən kimi dərindən köks ötürəcək, başımızdan tüstü qalxacaq. Mən hələ tələbələri demirəm.

Axı sən müəllimin Mehdi Məmmədovun yolunu davam etdirib, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs deyirdin. Neçə-neçə tələbə yetişdirirdin. Ötən ay yubileyində tələbələrin necə də sevinc içində idi. Sən müəllimdən öyrəndiklərin — Milli teatr ənənələrinə sədaqəti, novatorluğu, bədii obrazlarla haqq sözü demək bacarığını onlara aşılamısan...

Çox şeyə nail oldun. Fəxri adlara, Dövlət mükafatlarına. Milli Dram Teatrına başçılıq etdin. Tələbəlik illərinin sıxıntıları da xoş xatirəyə dönmüşdü. Bir insan ömründən, Tanrının verdiyi istedaddan səmərəli istifadə etdin... Hər şey yaxşılığa doğru gedirdi... Təki ömür belə qısa olmayaydı. Sənin rolda başından qalxan tüstü bizim bu gün başımızdan çıxmasaydı.

Atababa İSMAYILOĞLU

Çapdan çıxmışdır

"Literaturnı Azərbaycan" N-1

Yazıçılar Birliyinin rusdilli aylıq ədəbi-bədii nəşrinin — "Literaturnı Azərbaycan" dərgisinin builki ilk sayı xalq yazıçısı Anarın klassik şeirlər üslubunda qələmə aldığı poetik nümunələrlə açılır. Səyavuş Məmmədzadənin ruscaya çevirməsində təqdim edilən bu şeirlər Nizami, Yunis İmrə, Nəsimi, Füzuli, Xətai və başqa klassik şairlərin poetik irsinə sevgi ilə qələmə alınıb.

Yeni sayın "Bədii nəsr" bölümündə Kamil Əfsəroğlunun "İttiham" povesti (M.Hüseynzadənin çevirməsində), Ümbulbaninin "Paris günləri" romanının ardı, (Ülviyyə Axundovanın fransızcadan tərcüməsində), Marat Şəfiyevin "Şair və rəssam", həmçinin Gülşən Tofiqqızının, Aleksey Sâpıkinin, Natalya Krasyukovanın yeni hekayələri ədəbiyyat həvəskarlarına təqdim edilir.

Dərginin yanvar sayında poetik nümunələrə də geniş yer ayrılıb. Məmməd İsmayılın (çevirəni: S.Məmmədzadə), İbrahim İmaməliyevin, S. imzalı müəllifin, Sevinc Heydərovanın və nəsrin baş redaktoru Mansur Vəkilovun yeni şeirləri dərginin "Poeziya" bölümündə lirikasevərlərə ərməğan olunur.

"Literaturnı Azərbaycan"ın builki ilk sayının maraqlı izlənilən materiallarından biri də Natəvan Faiq qızının filoloq alim Nərgiz Paşayeva ilə müsahibəsidir. Dərginin oxucuları "Nərgiz Paşayeva: "Növbəti dairəyə daxil olmaqdan qorxmaq lazım deyil" adlanan bu söhbətdə ədəbi-mədəni həyatımızın müxtəlif problemləri ətrafında gedən maraqlı bir polemika ilə rastlaşacaqlar.

"Folklor və etnoqrafiya" N-4

Beynəlxalq elmi nəşr kimi Bakıda hər üç aydan bir işıq üzü görən "Folklor və etnoqrafiya" jurnalının ötənilki son sayı dərginin baş redaktoru, professor Məhərrəm Qasımlının "Novruz: Oyanış — qurtuluş bayramı" araşdırma məqaləsi ilə açılır. "Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının əski çağlardan daşıyıb gətirdiyi mənəvi dəyərlər sistemində Novruz bayramının da özünəməxsus yeri vardır..." — deyə yazan müəllif Şərq — türk sivilizasiyasında Azərbaycan milli-mənəvi düşüncə sisteminin rolu və xüsusi yeri barədə maraqlı qənaətlərini oxucularla bölüşür.

Elmi-kütləvi yazıları Azərbaycan, rus və türk dilində öz səhifələrində yerləşdirən "Folklor və etnoqrafiya" jurnaldakı məqalələrin qısa xülasəsi ingiliscə də verilir.

Professor İsrafil Abbaslının "Erməni folklor nəşrlərində Azərbaycan rəvayətləri" məqaləsini bizə şər-böhtan atmaqda mahirləşmiş qonşularımıza əsl intellektual cavab da hesab etmək olar: dərgi bu tipli yazılarla qlobal ideoloji savaşda mövqelərimizi daha da möhkəmləndirir.

Robert A.Corcsun "Dünyaca məşhur folklorçu: Alan Dandes" (ingiliscədən çevirəni Aydan Nəcəfovadır), Nebi Özdemirin "Türk Dünyası edebiyyatları arasındakı yeni körpü: İnternet", Ülfət Bədəlbəylinin "İz istorii zerkala ("Güzgülərin tarixindən")", Aynur Cəlilovanın "Kitabi-Dədə Qorqud"un antik dastanlarla qarşılaşdırılması", Doğan Kayanın "Folklor fədaisi Əli Kəmalini düşünərkən", Emil Kərimovun "Qaşqaylar", Nail Tanın "Ninnilerle büyümenin doyumsuz tatları", Gülşən Adıgözəlova və Afaq Hacıyevanın müştərək yazdıqları "Ruhun çağırışı" kimi elmi məqalələrdə, polemik araşdırmalarda jurnalın missiyasına uyğun problem və mövzulara toxunulur. Bu yazılar müxtəlif tədqiqatçı və alimlərin qənaətlərini, maraqlı mülahizələrini özündə cəmləyir.

Məhərrəm Qasımlının "Qorqud nurlu bir kişini itirdik" yazısında bu yaxınlarda dünyasını dəyişmiş millət fədaisi, ustad folklorçu, əslən Güney Azərbaycandan olan Məhəmməd Əli Fərzanənin ömür yolu "dilimizin, milli-tarixi kimliyimizin, ədəbi-mədəni varlığımızın canlı ensiklopediyası" kimi dəyərləndirilir.

Aşıq Murad Niyazlının söylədiklərindən yazıya alınmış "Qonaq qardaş, sorma mənim halımı...", Aşıq Niftullanın "Dərbəndin tərifi" hekayətləri, eyni zamanda Şair Cavadın xalq şeri üslubundakı lirik əsərləri, Bəhlul Abdullanın "Bayatı ərməğanı", Orxan Paşanın "Gedək Təbrizə-Təbrizə" şeri folklorsevər ədəbiyyat həvəskarlarına ünvanlanıb.

"Ədəbiyyatşünaslığın əsasları"

Şair-ədəbiyyatşünas Rafiq Yusifoğlunun bu yaxınlarda çapdan çıxmış (Bakı, "Şirvannəşr", 2005) "Ədəbiyyatşünaslığın əsasları" dərsliyi yeni və təkmil nəşr olaraq filoloq tələbələrin və müəllimlərin ixtiyarına verilmişdir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin qərarı ilə çap olunan kitab əvvəlki illərdə müxtəlif müəlliflər tərəfindən nəşr olunan "Ədəbiyyatşünaslığın əsasları" dərsliklərindən yeni ruhuna, predmetin tədrisilə bağlı yeni mülahizə və analiz çevrəsinə görə fərqlənir. Əlbəttə, inkar etmək olmaz ki, görkəmli ədəbiyyatşünaslarımızdan Cəfər Xəndanın, Mir Cəlalın, Pənah Xəlilovun və b. neçə-neçə alimin ədəbiyyatın nəzəriyyəsi, qayda-qanunları, janr, növ, forma, bölgü və ölçü prinsipləri ilə bağlı çox dəyərli kitab-dərslikləri bu gün də öz təravətini saxlamaqdadır. R.Yusifoğlu ədəbiyyatşünaslıq elminin nəzəri müddəalarını sistemləşdirərkən yeni-yeni nümunələrə müraciət edir, rus və Avropa ədəbiyyatından da maraqlı misallar gətirir. Müəllif nəzəri problemləri metodoloji struktura salarkən görkəmli rus ədəbiyyatşünaslarından Jirmunskinin, Qulyayevin, Timofoyevin, Belçikovun ədəbiyyatla bağlı dəyərli fikirlərinə də meydan verir.

Dərslik aşağıdakı bölmələrə ayrılır: Giriş, Ümumi nəzəri prinsiplər, Bədii əsərlərdə obrazlar sistemi, Bədii əsərin strukturu, Bədii əsərlərin dili, ədəbi növlər və janrlar, şeir sənəti və onun qanunauyğunluqları, Bədii əksetdirmənin prinsipləri.

A.Savalan

"Şəfəq" N-3-4

Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölməsinin ədəbi-bədii orqanı kimi respublikamızın cənub bölgəsində yazıb-yaradanların yaradıcılığını özündə əks etdirən "Şəfəq" dərgisinin 2005-ci ilin son sayı tənqidçi Vaqif Yusiflinin "Cənub bölgəsində ədəbi həyat (II məqalə)" yazısı ilə açılır.

Yeni sayın "Poeziya" bölümündə Mehman Qaraxanlı, Bəxtiyar Əliyar, Sərraf Talıbov, Esmira Ağayeva, Sakitə Əliyeva, İlham İlhami, Ağababa Nakam, Oqtay Zəka, Həbib Səfərov, Məmməd Həbib, Anar kimi müxtəlif poetik nəfəsli şairlərin yeni şeirləri verilib.

"Bədii nəsr" bölümündə Əli Şimşəyin "Acı göz yaşları" detektiv povesti, Meyxoş Abdullahın "Qan", Səyavuş Süleymanovun "Əhməd" və "Çaşqınlıq" hekayələrini oxucuların ixtiyarına buraxılır.

Mirhafiz Bahadırın "Təəssürat", Mirhaşım Talışlının "Həkim-şair İdris Ağayev", Ağamir Cavadın "Bir kəlmə sözün dalğası", İltifat Verdiyevin "Görkəmli şəxsiyyət" və başqa müəlliflərin məqalələri əsasən güneyli qələm adamlarının həyat yolu, yaradıcılıq nümunələri haqqında respublika ədəbi-mədəni ictimaiyyətinə məlumatlar verilir.

Dərginin bu sayı öz qonaqlarının — Naxçıvan torpağının şairlərinin yeni şeirlərini oxucularına ərməğan edir. Zeyqəm Vüqar, Əbülfəz Muxtaroğlu, Asim Yadigar, Muxtar Qasımzadə, Kəmalə kimi "Odlar diyarı"nın şair övladları özlərinin poetik nümunələri ilə lənkəranlı şeirsevərlərin qarşısında ədəbi hesabat verirlər.

AYB Lənkəran bölməsinin sədri, eyni zamanda "Şəfəq" dərgisinin baş redaktoru İltifat Salehin 70 illik yubileyi münasibətilə Yazıçılar Birliyinin təbriki getmiş dərginin bu sayında şairin "Cavabdehlik" adlı yeni poeması da verilmişdir.

Macarıstanlı nasir Şandoy Tyorrkun "İnsanları mühafizə cəmiyyəti" hekayəsi, Amerika şairəsi Edna Sent-Vinsent Milleyin "Ağı" şeri (tərcümə edən: Ağaddin Babayev) isə "Yeni tərcümələr" bölümündə gedib.

"Kitab rəfində" güneyli yazarların ötən il işıq üzü görmüş yeni kitabları barədə məlumatlar verilir.

Azad Zülaloğlunun "Lənkəran lətifələri" isə oxuculara Novruz təbəssümü bəxş edir:

"Nəvəsi Baləmiden soruşur:

— Baba, sən heç müharibədə olmusan?

— Bəli, bala, nənənlə evlənən gündən həmişə müharibədəyəm..."

Bildirişlər

Martın 15-də saat 14-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda professor Əkrəm Cəfərin "Mirzə Ələkbər Sabir şerinin qafiyə lüğəti" kitabının təqdimatı keçiriləcək.

Martın 13-də saat 14-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Eluca Atalının "Adamdan üstün" kitabının təqdimatı keçiriləcək.

Martın 14-də saat 14-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda şair Sücayətin "Dəlidağın dəliləri hardadır?" kitabının təqdimatı keçiriləcək.

Maraqlananlar dəvət olunur

Repertuar

Azərbaycan Akademik Milli Dram Teatrı



10 mart
İ.Əfəndiyev
Dəlilər və ağıllılar
11 mart
İ.Əfəndiyev
Xurşidbanu Natəvan
12 mart
H.Cavid
Afət
Saat 19-da
Tel.: 494-48-40

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı



14 mart
P.Bülbüloğlu
Eşq və ölüm
Saat 19-da
Tel.: 493-31-88

Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı



10 mart
V.Adıgözəlov
Anar
Aldın payını, çağır dayını
11 mart
S.Ələsgərov
İ.Məlikzadə
Hərənin öz ulduzu
12 mart
S.Fərəcov
Ə.Əmirli
Səhnədə məhəbbət
Saat 19-da
Tel.: 493-88-37

S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı



10 mart
L.de.Vega
Xitroumnaya vlyublennaya
11 mart
L.Razumovskaya
Braçnoe Aqentstvo "1+..."
12 mart
V.Şekspir
Çto uqodno
Tel.: 493-00-63

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı



10 mart
Ə.Orucoğlu
Nənənin kələyi
11 mart
Saat 19-da
L.Kərimov
Zorro
Saat 15-də
Ə.Orucoğlu
Nənənin kələyi
Saat 19-da
12 mart
L.Kərimov
Zorro
Saat 10.30-da
Ə.Orucoğlu
Nənənin kələyi
Saat 19-da
Tel.: 493-65-78

Biletlər teatrların kassalarında satılır

Allah rəhmət eləsin

Azərbaycan Yazıçılar Birliyi **İlyas Tapdıqa**, anası

MUNCUQ xanımın

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Yazıçılar Birliyi Birliyin əməkdaşı **Sədaqət** xanıma, oğlu

RASİM QAFAROVUN

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Yazıçılar Birliyi **Firidun Rəhimin** vəfatı münasibətilə mərhumun doğmalarına, yaxınlarına başsağlığı verir.

Baş redaktor: Ayaz Vəfalı
Redaksiya heyəti: Hüseyn Abbaszadə, Şirindil Alışanlı, Aqşin Babayev, Nizami Cəfərov, İsa Həbibbəyli, Hidayət, Nazim İbrahimov, Elçin İskəndərzadə, Atababa İsmayıloğlu (məsul katib), Yusif Kərimov, İlham Qəhrəman, Əkbər Qoşalı, Bəkir Nəbiyev, Qəzənfər Paşayev, Ramiz Rövşən, Rübail, Sabir Rüstəmxanlı, Əli Səmədli, Vaqif Səmədoğlu, Vasif Süleyman, Azər Turan (baş redaktor müavini), Bəxtiyar Vahabzadə

Təsisçilər: Azərbaycan Yazıçılar Birliyi, "Ədəbiyyat qəzeti"nin yaradıcı əməkdaşları

"Ədəbiyyat qəzeti"nin kompüter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Hesabımız: h/h YSM-324665 AZM-3201-01, ABB Yasamal filialı KOD 805562

Redaksiya şurası: Yavuz Akpinar (Türkiyə), Betti Bleyer (ABŞ), Əbdüllətif Bəndəroğlu (İraq), Harid Fedai (Şimali Kipr Türk Respublikası), Cavad Heyət (İran), İldəniz Qurtulan (Türkiyə), Lüdmila Lavrova (Rusiya), İren Melikof (Fransa), Əhməd Şmide (Almaniya), Qulamrza Səbri Təbrizi (İngiltərə), İrfan Ülkü (Türkiyə)



Redaksiyanın ünvanı: Bakı - AZ 1073, Mətbuat pr. 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, 9-cu mərtəbə

Qiyməti: satış - 800 manat; yeni qiymət - 16 qəpik.
abunə - 500 manat; yeni qiymət - 10 qəpik
Əlyazmalar geri qaytarılmır. Qəzet cümə günü çıxır.
Çapa imzalanmışdır: 9.03.2006 saat 23[illegible]

Telefonlar: baş redaktor 439-52-56, baş redaktor müavini 439-50-67, məsul katib 439-91-68, şöbələr 438-03-17. Faks: 438-85-70. E-MAIL: redaksiya@edebiyyatqazeti.com

Şəhadətnamə N:186
İndeks 66800

Sifariş 988
2132 nüsxə